*YAPONIYANIN AZƏRBAYCANDAKI SƏFIRLIYI*

Hyatt Tower 3, 6-cı mərtəbə
Izmir küç. 1033, Bakı

30 aprel, 2009-cu il

# *Mətbuat üçün Məlumat*

***Yaponiya Hökumətinin "Ot kökləri və İnsan Təhlükəsizliyi Qrant Yardımı Proqramı" çərçivəsində həyata keçirilmiş Bərdənin iki kəndində içməli su təchizatı sisteminin inşası layihəsinin başa çatması münasibəti ilə açılış mərasiminin keçirilməsi***

5 may 2009-cu il tarixdə saat 16:30-da Yaponiyanın "Ot kökləri və İnsan Təhlükəsizliyi Qrant Yardımı Proqramı" çərçivəsində həyata keçirilmiş Bərdənin iki kəndində içməli su təchizatı sisteminin inşası layihəsinin başa çatması münasibəti ilə açılış mərasimi keçiriləcəkdir. Mərasimdə Yaponiyanın Azərbaycan Respublikasındakı Səlahiyyətli və Fövqəladə Səfiri cənab Masamitsu Oki, Bərdə rayon İcra Hakimiyyəti Başçısı cənab İlham Ağayev və müvafiq təşkilatların nümayəndələri iştirak edəcəklər.

Sözügedən layihə üzrə qrant müqavilə Yaponiya Səfirliyi və "Aran" Qeyri Hökumət təşkilatı arasında 27 noyabr 2008-ci ildə imzalanmışdır. Layihənin əsas məqsədi Bərdənin iki kəndində içməli su təchizatı sistemini təkmilləşdirməkdir. Layihədən faydalanacaq şagirdlərin sayı 7,600 nəfərdir. Layihənin ümumi dəyəri isə **87,780 ABŞ dollarıdır**.

Yaponiya Hökumətinin "Ot kökləri və İnsan Təhlükəsizliyi Qrant Yardım Proqramı" 2000-ci ildən Azərbaycan Respublikasında həyata keçirilir. Bu qrant proqramı Azərbaycan xalqının yaşayış standartlarının yaxşılaşdırılmasına yönəlmiş və bələdiyyələr, tibbi müəssisələr, təhsil müəssisələri və QHT-lər tərəfindən həyata keçirilən nisbətən kiçik miqyaslı layihələrə ayrılır. Belə layihələr səhiyyə, tibb, ibtidai və orta təhsil, sosial müdafiə, ətraf mühit, yoxsulluğun azaldılması və gəlirlərin artırılması sahəsində həyata keçirilə bilər. İndiyə kimi bu proqram çərçivəsində Azərbaycan Respublikasında ümumi məbləği **8, 070, 000** ABŞ dolları olan **115** layihə həyata keçirilmişdir.

Yaponiyanın Azərbaycana ayırdığı Rəsmi İnkişaf Yardımı iqtisadi infrastrukturun yaxşılaşdırılması, kənd təsərrüfatı, sosial sahə, mədəniyyət və insan resurslarının inkişafı kimi geniş sahələri əhatə etməklə ümumi məbləği **1030.114** milyard ABŞ dolları təşkil etmişdir.

***Mətbuat Nümayəndələri açılış mərasimində iştirak etməyə dəvət olunur. Əlavə məlumat üçün Eri Momiyama (ancaq rus və ingilis dillərində) və Leyla Hacızadə ilə aşağıdakı nömrələr vasitəsilə əlaqə saxlaya bilərsiniz*:**

**490 78 18/490 78 19; Fax: 490 78 20**